*Yeni kitablar*

# Məmməd İsmayıl ömrünün min bir anı

**Türk dünyasının tanınmış şairi və ədəbiyyatşünası, professor Məmməd İsmayıl Türkiyənin “Paradigma Akademi” (Çanaqqala) nəşriyyatının çap etdiyi “Məmməd İsmayıl ərmağanı” (“Prof. Dr. Mehmet İsmail Armağani”) kitabının işıq üzü görməsi ilə yenidən qardaş ölkədə gündəmə gəlib. Min səhifədən çox həcmi olan kitabda ədibin həyat və yaradıcılığı Azərbaycan və Türkiyədəki çoxillik ədəbi-ictimai fəaliyyətin timsalında geniş əksini tapıb. Nəşrə Türk dünyasını bütün dünyada tanıdan şair, yazıçı və elm adamlarının Məmməd İsmayıla həsr etdiyi şeirlər, xatirələr və elmi məqalələri daxil edilib.**

Kitabın tərtibatçısı və redaktoru Çanaqqala On səkkiz Mart Universitetinin müəllimi Ayfər Aytaç kitaba yazdığı ön sözdə bildirib: “Məmməd İsmayılın adına layiq hədiyyə-kitab hazırlamaq olduqca çətin bir işdir. Onun poeziyası və akademik fəaliyyəti, jurnalistika və televiziya proqramı ilə yanaşı, dil, ədəbiyyat sahəsindəki uğurları, ssenaristlik, jurnal redaktəsi və hər birində önəmli işlər həyata keçirməsi və bunları bir kitabda təqdim etmək bu çətinliyin əsas səbəbidir”.

Tərtibçi-redaktor daha sonra qeyd edib ki, Məmməd İsmayılın yalnız yayımlanmış şeir kitablarının, hekayələrinin, çoxsaylı qəzet və jurnallarda çıxmış yazılarının, müsahibələrinin, elmi məqalələrinin,



təltif olunduğu mükafatların siyahısı o qədər zəngindir ki, bunların hamısını bir kitaba toplayıb dəyərləndirmək mümkün olmayıb. Bunun üçün Azərbaycandakı bütün nəşrləri toplamaq, qəzet arxivlərini araşdırmaq, kiril qrafikası ilə nəşr edilmiş jurnalları, qəzetləri, şeir kitablarını axtarmaq kimi böyük bir layihəni həyata keçirmək tələb olunur.

Bu səbəbdən də ərmağan kitabında bunların hamısına yer vermək imkansız və çətin olub. Bu çətinlik və imkansızlığa baxmayaraq, 1000 səhifədən yuxarı bir kitab “Unudub unutsun yerdə bəndələr, Göydə, ad gününü keçirər Allah” deyən böyük şairin bəndələr tərəfindən yüz illər sonra da unudulmayacağının təsdiqidir.

Biz də sadiq oxucuları olaraq sevimli ədibimizə, ömrünün 9-cu onilliyini xırdalayan ustad şairə möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzu edirik.

**Namiq QƏDİMOĞLU,**
**“Xalq qəzeti”**

Xalq qəzeti .- 2022.- 3 noyabr.- S.11.